**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 18 mart tarixli 50 nömrəli, "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 12 may tarixli 88 nömrəli, "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 24 iyun tarixli 117 nömrəli və "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010,  3, maddə 261; 2011,  9, maddə 858; 2013,  3, maddə 335,  10, maddə 1229,  11, maddə 1464; 2016,  12, maddə 2239; 2017,  4, maddə 641; 2018,  11, maddə 2428; 2019,  3, maddə 537; 2020,  11, maddə 1412) ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.5-ci bəndinə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010,  5, maddə 467; 2014,  4, maddə 450; 2016,  4, maddə 820,  6, maddə 1201,  12, maddə 2239; 2017,  2, maddə 307; 2018,  11, maddə 2431; 2019,  12, maddə 2051; 2020,  3, maddə 340,  5, maddə 650) ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"nın 1.7-ci bəndinin ikinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010,  6, maddə 561; 2012,  12, maddə 1345; 2014,  4, maddə 451; 2016,  12, maddə 2239; 2017,  4, maddə 665,  12 (II kitab), maddə 2534; 2018,  11, maddə 2431; 2020,  3, maddə 341,  5, maddə 650; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 dekabr tarixli 504 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.8-ci bəndinin ikinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010,  7, maddə 695; 2013,  10, maddə 1228; 2014,  1, maddə 56; 2017,  4, maddə 666; 2018,  11, maddə 2431; 2019,  2, maddə 357,  11, maddə 1863; 2020,  1, maddə 67) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 1.6-cı bəndinin ikinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayırlar.".

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 22 fevral 2021-ci il
40